# Beynəlxalq simpozium

Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" sərəncamlarına uyğun olaraq, Bakıda "Birinci Dünya müharibəsi dövründə Osmanlı dövləti - Azərbaycan əlaqələri və Qafqaz İslam Ordusu" mövzusunda beynəlxalq simpozium keçirilib.

Simpozium iştirakçıları Fəxri xiyabanda Ulu öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını, həmçinin şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsini ziyarət ediblər.

Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının Dairəvi zalında baş tutmuş simpoziumda AMEA prezidenti, akademik Akif Əlizadə çıxış edib.

Təşkilatçıları AMEA-nın Tarix İnstitutu və Türkiyə Respublikasının Atatürk Araşdırma Mərkəzi olan elmi simpoziumun işi haqqında geniş reportaj qəzetimizin növbəti sayında dərc olunacaq.

Elm.- 2018.- 14 sentyabr.- S.5.